# MÜASİR ŞƏRAİTDƏ MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMLƏRİNİN İNFORMASİYA FUNKSİYASININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

**Afət Qnyaz qızı Rzayeva**
***Bakı Dövlət Universiteti Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dissertantı***

***Xülasə:*** *Müasir informasiya cəmiyyətində kitabxanaların informasiya funksiyası daha böyük əhəmiyyət kəsb etməkdədir. Bu baxımdan cəmiyyətdə kitabxana işinin avtomatlaşdırılması, informasiya xidmətinin təkmilləşdirilməsi kimi mühüm vəzifələr durur.*

*Uzun əsrlər boyu informasiyanın, kitabın böyük daşıyıcısı kimi tanınan kitabxanalar ənənəvi olaraq sənəd informasiyasını, kitabı toplayıb saxlayan, onu oxucuların istifadəsinə verən bir müəssisə kimi formalaşmışdır. Hazırda təhsildə, elmi tədqiqat işində, texniki tərəqqidə, mədəni inkişafda mühüm irəliləyişlər baş vermiş, insanlara informasiya xidməti ciddi surətdə mürəkkəbləşmiş və yeniləşmişdir. Bu baxımdan kitabxanalkarın informasiya funksiyası indi daha çox aktuallıq kəsb edir.*

***Açar sözlər:*** *informasiya cəmiyyəti, kitabxana işinin avtomatlaşdırılması, mərkəzləşdirilmiş kitabxana sistemləri informasiya funksiyası.*

**Afet Rzayeva**

## The main characteristics of the information function of centralized library systems in modern conditions

***Abstract: In*** *the modem information system, the information functions of libraries are becoming increasingly important. There are important tasks in these issues, such as the automation of library work and the development of information services.*

*Known as the carriers of information and large books for many centuries, Documentary Information for Libraries has evolved as an enterprise dedicated to the collection and storage of books and their use for readers. At present, significant progress has been made in education, scientific research, technical field and cultural development, the information service of the population has become seriously complicated and updated. In this regard, the information functions of libraries are now more relevant.*

***Key words:*** *information society, automation of library work, centralized library system, information functions.*





**Афет Рзаева**

## Основные характеристики информационной функции централизованных библиотечных систем в современных условиях

***Резюме:*** *В современной информационной системе все большее значение приобретают информационные функции библиотек. В этих вопросах есть важные задачи, такие как автоматизация библиотечной работы и развитие информационных услуг.*

*Документальная информация для библиотек, известных как носители информации и больших книг на протяжении многих веков, формировалась как предприятие, занимающееся сбором и хранением книг и их использованием для читателей. В настоящее время достигнут значительный прогресс в образовании, научных исследованиях, технической области и культурном развитии, серьезно усложнилось и обновилось информационное обслуживание населения. В связи с этим информационные функции библиотек сейчас более актуальны.*

***Ключевые слова:*** *информационное общество, автоматизация библиотечной работы, централизованная библиотечная система, информационные функции.*

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda deyilir: "kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur; kitabxana işi – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi kitabxana sisteminin təşkili və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, hüquqi və fiziki şəxslərə kitabxana, informasiya və biblioqrafiya xidməti qaydalarını, kitabxanaçı-biblioqraf kadrların hazırlanmasını, kitabxanaların inkişafının elmi-metodik təminatını əhatə edən fəaliyyət sahəsidir" [2].

Göründüyü kimi, Qanunda kitabxananın beş sosial funksiyası müəyyənləşdirilmişdir: elm funksiyası, informasiya funksiyası, mədəniyyət funksiyası, təhsil funksiyası, tərbiyə funksiyası.

İnformasiya cəmiyyəti şəraitində kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti son dərəcə artmışdır. cəmiyyətin informasiya tələbatını kitabxanalar olmadan ödəmək mümkün deyildir. Kitabxana cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəlməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial

institut kimi yaxından iştirak etməklə ən çox istifadə olunan müəssisəyə çevrilmişdir.

Professor Abuzər Xələfovun vurğuladığı kimi, "getdikcə mühüm əhəmiyyət kəsb edən informasiya funksiyası kitabxanaçıların qarşısında daha mühüm vəzifələr qoyur. Bu vəzifələr, hər şeydən əvvəl, kitabxanaçılıq peşəsinin məzmununda da dəyişiklik edilməsini, daha da təkmilləşdirilməsini tələb edir. Kitabxana işinə və informasiya-axtarış sistemlərinə texniki vasitələr geniş şəkildə daxil olduqca, kitabxana işinin kompüterləşdirilməsi zəruri tələbata çevrildikcə kitabxanaçılıq sənətinin formalaşdırılmasında humanitar biliklərlə yanaşı, texniki biliklərin öyrənilməsinə böyük ehtiyac duyulmaqdadır" [3, s. 313].

Kitabxananın informasiya funksiyası məqsədi istifadəçilərin sənəd və informasiya ehtiyaclarını ödəmək, müxtəlif növ informasiya fəaliyyətləri vasitəsilə sənəd-informasiya axınlarına istiqamətləndirmək olan funksiyadır. Bu baxımdan mərkəzləşdirilmiş kitabxana sistemlərinin (MKS-lərin) fəaliyyətində informasiya funksiyasının həyata keçirilməsi diqqəti cəlb edir.

Məlum olduğu kimi, 1970-ci illərin sonu - 1980-ci illərin əvvəllərində dövlət kütləvi kitabxanalar şəbəkəsi Azərbaycanın vahid kitabxana sistemində aparıcı kitabxana şəbəkəsi rolunu oynamış, ümumi sayı və mühüm xidmət göstəriciləri baxımından ən üstün səviyyəyə malik olmuşdur. Bununla yanaşı, dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi və MKS-lərin yaradılması əsas kitabxana proseslərini birləşdirməklə kitabxana ehtiyatlarının məqsədyönlü, daha effektli formalaşmasına və istifadə edilməsinə, kitabxanaların maddi və təşkilati məsələlərinin prinsipial və məqsədyönlü həllinə şərait yaratmışdı. Kitabxana sistemlərinin əsas istiqamətlərinin və inkişaf perspektivlərinin təyin edilməsi; kitabxana ehtiyatlarının formalaşdırılması, yerləşdirilməsi; siqnal biblioqrafik informasiyaların, yeni daxil edilmiş ədəbiyyat haqqında məlumatların, kitabxanalararası abonementin təşkili, az istifadə olunan ədəbiyyatın saxlanılması, kitabxana işində kompüterlərdən istifadə edilməsi haqqında vahid siyasətin aparılması və s. məsələlər məhz mərkəzləşdirmə nəticəsində öz operativ həllini tapırdı.

Mərkəzi kitabxananın ayrı-ayrı şöbələrinin filial kitabxanalarının işinin təşkilində yaxından iştirak etməsi onların işini dövrün tələbləri səviyyəsində qurmaq üçün şərait yaradırdı. Bir sıra kitabxanaşünaslar mərkəzləşdirmənin filial kitabxanalarının müstəqilliyinə xələl gətirməsi haqqında fikirlər söyləsələr də, mərkəzləşdirmə zamanı əldə edilmiş təcrübə, mərkəzləşdirmənin üstünlükləri bu fikirlərin yanlış olduğunu göstərdi. Nəhayət, mərkəzləşdirmə sovet kitabxana sistemində uzun illərdən bəri formalaşan və həmin dövrdə meydana çıxan qüsurların və çatışmazlıqların aradan qaldırılmasına şərait yaratmaqla yanaşı, bu sistemi təzələdi, müasirləşdirdi, durğunluğu aradan qaldırıb işlək bir sistemə çevirdi.





Doğrudur, 1990-cı illərdə rus mətbuatında mərkəzləşdirilmiş kitabxana sistemlərinin nöqsanları, onların müasir dövrün tələblərinə cavab vermədiyi haqqında fikirlər səslənirdi. Lakin Rusiyanın kitabxana ictimaiyyəti bu fikirləri qəbul etmədi. Azərbaycanda isə belə fikirlər olmadığından əhaliyə kitabxana xidmətində mərkəzləşdirilmiş kitabxana sistemlərinin rolu yüksək qiymətləndirildi, onların işinin daha da təkmilləşdirilməsi haqqında tədbirlər görülməyə başlandı. Təsadüfi deyil ki, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun "Kitabxana sisteminin tərkibi" adlı 6-cı maddəsində mərkəzləşdirilmiş kitabxana sistemləri Azərbaycan kitabxana sistemlərinin əsas tərkib hissələrindən biri kimi göstərilmişdir [2].

Kütləvi kitabxanaların mərkəzləşdirilməsi müəyyən ərazidə, rayonda müstəqil, ayrı-ayrılıqda fəaliyyət göstərən kitabxanaların vahid və əlaqəli sisteminin yaranmasına və inkişafına səbəb olmuşdur. Bunun nəticəsində MKS-lərin vahid fondları məzmunca zənginlənmiş, xidmət dairəsi və funksiyaları daha da genişlənmişdir. Faktlar təsdiq edir ki, hazırda MKS-lər oxucuların nəinki siyasi, mədəni və ümumtəhsil səviyyəsinin inkişafına əhəmiyyətli təsir göstərir, həm də xüsusilə rayon yerlərində istehsalata kitabxana-informasiya xidmətinin təşkilində ketdikcə vacib mövqe tuturlar. İndiki müstəqillik şəraitində MKS-lərin əməli rolunun daha da artırılması və kitabxana işinin səmərəlilik göstəricilərinin yüksəldilməsi bilavasitə xalq təsərrüfatı mütəxəssislərinə xidmətin təşkili ilə müəyyən edilir.

Bu məsələ ilə bağlı professor Abuzər Xələfov belə yazır: "Mərkəzləşmiş kitabxana sisteminin yaradılması kiçik kitabxanaların vahid sistemdə birləşdirilməsi yolu ilə kitabxanaların ehtiyatlarını və qüvvələrini mərkəzləşdirməyə, vahid kitab fondu və məlumat aparatı yaratmağa, oxuculara və istehsalat kollektivlərinə operativ məlumat xidmətini genişləndirməyə geniş şərait yaradır və beləliklə də oxuculara xidmət işinin keyfiyyətinin yüksəldilməsi sahəsində böyük perspektivlər açırdı. Kitabxana işinin inkişafında keyfiyyətcə yeni mərhələ olan mərkəzləşmə nəticəsində hər bir şəhərdə və rayonda filial sistem, yəni əvvəllər müstəqil fəaliyyət göstərən kitabxanalardan müqayisə edilməz dərəcədə böyük üstünlüklərə və imkanlara malik olan vahid kitabxana müəssisələri yaradılmışdır. Mərkəzləşmiş kitabxanalar şəhər və rayonlarda bir-birindən ayrılıqda deyil, bir-biri ilə əlaqədar, bir-birini tamamlayan vahid sistem kimi fəaliyyət göstərir. Vahid kitabxana sisteminin yaranması şəhər və rayon kütləvi kitabxana şəbəkələrində olan xırda kitab fondlarının yerinə kəmiyyət və keyfiyyətcə böyük və universal kitab fondlarının yaranmasına səbəb olmuşdur. Mərkəzləşmə həmçinin kitabxanalara məlumat-biblioqrafiya və informasiya işini daha operativ və keyfiyyətli təşkil etmək, daha geniş miqyasda həyata keçirmək imkanı vermişdir. Zəngin və böyük fonda, güclü məlumat-biblioqrafiya və informasiya işinin təşkili imkanına malik olan mərkəzləşmiş sistemlər əhaliyə kitabxana xidməti prosesini keyfiyyətcə yeni mərhələyə qaldırmağa şərait yaratdı. Oxuculara xidmət işinin ideya-siyasi səviyyəsi, keyfiyyəti və səmərəsi

müqayisə edilməz dərəcədə yüksəldi. Mərkəzləşmə kütləvi kitabxana şəbəkələrinin idarə olunmasına, kitabxanalarda əməyin düzgün təşkilinə, işçilər arasında ixtisaslaşmalar aparılmasına, metodik işin elmi əsaslar üzərində yenidən qurulmasına səbəb olmuşdu. Mərkəzi kitabxana ilə filiallar arasında daha operativ əlaqənin yaranması, ucqar kəndlərdə və xırda yaşayış məntəqələrində oxucuların sorğusuna cavab vermək üçün indiyə qədər həlli mümkün olmayan şərait yaratdı ki, bu da əhaliyə kitabxana xidmətinin təşkilində yeni mərhələnin başlanması kimi qəbul edilməlidir" [3, s. 360-361].

Respublikamızın bir sıra qabaqcıl MKS-lərində xalq təsərrüfatına kitabxana-biblioqrafiya və informasiya xidmətinin müxtəlif forma və metodları fəal sürətdə tətbiq edilir. Bunlardan informasiya və mütəxəssis günlərinin, ədəbiyyata aşıq baxışın, informasiyanın seçilmiş yayılması sistemlərinin, rəhbər işçilərə fərqli xidmətin təşkili xüsusilə geniş şəkil almışdır. İndi müstəqil elmi və iqtisadi inkişaf dövründə elmi-texniki, xüsusi kitabxanaları və informasiya orqanlarını kütləvi kitabxanalara qarşı qoymaq, onların xidmət metodlarını və formalarını müəyyən çərçivədə məhdudlaşdırmaq mənasızdır. Öz xidmət etdikləri ərazilərdə, xüsusilə informasiya orqanları, elmi-texniki və xüsusi kitabxanaları olmayan rayonlarda MKS-lər xarakterik elmi-texniki informasiya tələbatını ödəməli, hətta bir sıra hallarda onları əvəz etməlidir.

Əlbəttə, dünya informasiya fəaliyyətində işlənmiş onlarla, yüzlərlə xidmət metodlarının və vasitələrinin hamısını birdən-birə mexaniki sürətdə Azərbaycan MKS-lərinə tətbiq etmək olmaz. Bu işdə nisbətən sadə informasiya xidməti metodlarından başlamaq və getdikcə daha mürəkkəb xidmət metodlarının tətbiq etmək lazım gəlir. Burada MKS-in konkret vəzifələri, maddi-texniki bazasının səviyyəsi, maliyyə imkanları və kadr təminatı nəzərə alınmalıdır. Bir cəhəti həmişə nəzərə almaq lazımdır ki, MKS-də informasiya xidməti epizodik xarakter daşımamalı, müntəzəm və kompleks xidmət forması olmalıdır.

Soraq-informasiya fondunun komplektləşdirilməsi, planlaşdırılması, sənədlərin uçotu və fondun təşkili MKC-də icra edilən əlaqədar proses və əməliyyatlar xeyli uyğundur. Bu cəhət onu ifadə edir ki, MKC-də soraq-informasiya fondunun təşkili onun iş həcmini bir qədər artırır, lakin MKC-in ümumi quruluşunu və funksiyalarını dəyişir. Digər cəhətdən, soraq-informasiya fondunun təşkili MKC-in informasiya funksiyalarını genişləndirir, onu respublikanın iqtisadi inkişafının əsas istiqamətləri ilə daha çox əlaqələndirir.

Məlumdur ki, informasiya xidməti informasiya sorğuları əsasında fərdi və kollektiv tələbatçılara informasiyanın müxtəlif rejimlərdə xidmət üsulları və formaları ilə verilməsinin metodları və texnologiyasıdır. İnformasiya təminatı bir sıra hallarda sorğular olmadan da kollektiv tələbatçıların (müəssisə və idarələrin) konkret profilinə uyğun olaraq aparılır. Məsələn, siqnal informasiyalarının verilməsi, informasiya nəşrlərinin (informasiya vərəqələri, texniki vərəqələr, tematik seçmələr, icmal-analitik informa-siyalar və s.) hazırlanması və istiqamətli şəkildə yayılması informasiya təminatı rejimləridir.





İnformasiya xidməti metodlarına sərgi-seminar, kinoinformasiya, elmi-texniki təbliğat, maqnit lentlərində məlumat bazalarının işlənməsi və verilməsi və s. daxildir. İnformasiyanın seçilmiş yayılması, siqnal informasiya verilişi, informasiya nəşrlərinin yayılması və s. informasiya təminatı metodlarıdır. Həm informasiya xidmətini, həm də informasiya təminatını icra etməyə imkan verən sistemlər vardır ki, onlar da inteqral elmi-texniki informasiya sistemləri adlanır.

Hazırda respublikaların elmi-texniki informasiya orqanları informasiya xidməti metodlarından avtomatlaşdırılmış informasiya təminatı metodlarına keçirlər. Bu məqsədlə respublika və beynəlxalq avtomatlaşdırılmış informasiya mərkəzləri şəbəkəsi yaradılmış, vahid strukturlu və funksiyalı bir sıra inteqral avtomatlaşdırılmış informasiya sistemləri işlənib tətbiq edilmişdir. Həmin sistemlərdə informasiya xidməti və təminatı metodları kompleks və əlaqəli formada birləşdirilmişdir.

MKS-lərdə isə əsasən sadə informasiya xidməti metodları (məsələn, yeni daxil olmuş ədəbiyyatın informasiya bülletenləri, tematik sərgilər, informasiya günləri və s.) tətbiq edilir və hazırda qismən biblioqrafik informasiya təminatı metodlarına (məsələn, informasiyanın seçilmiş yayılması, rəhbər işçilərə fərqli xidmət, tematik informasiya bülletenlərinin hazırlanması) keçilir. Bu cəhət MKS-lərdə informasiya işinin təşkilində ilkin ümumi xüsusiyyətdir. Lakin təbii ki, informasiya təminatı metodlarının kompleks tətbiqi daha səmərəli perspektiv istiqamətdir və bu cəhətdən MKS-lərin fəaliyyətini daha da intensivləşdirmək məqsədəuyğundur.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nda deyilir: "Azərbaycanda informasiya cəmiyyətinin formalaşmasına dövlət qayğısı, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, onun xalqımızın rifahına xidmət edən aparıcı amilə çevrilməsi ölkəmizin gələcək perspektivlərinə hesablanmış siyasətin tərkib hissəsidir. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 17 fevral tarixli 1146 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın (2003-2012) və onun icrası ilə bağlı qəbul edilmiş dövlət proqramlarının həyata keçirilməsi nəticəsində təhsil, səhiyyə və digər sosial sahələrdə, iqtisadiyyatda, biznes fəaliyyətində, gündəlik həyatda İKT-nin imkanlarından istifadə səviyyəsi nəzərəçarpacaq dərəcədə artmışdır. Ölkədə ən son texnoloji yeniliklər tətbiq edilmiş, internetə simli, simsiz, mobil texnologiyalarla çıxış imkanları yaradılmışdır" [1].

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun "Kitabxanaların vəzifələri" adlı 22-ci maddəsində göstərilir: "Kitabxanalar oxucuların mədəniyyət təsisatları və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını, habelə məlumat əldə etmək azadlığını təmin etməli, onların

kitabxana fondlarından tam istifadə etməsi üçün hər cür şərait yaratmalıdırlar" [2].

Buradan belə bir nəticə çıxır ki, tipindən, növündən və tabeçiliyindən asılı olmayaraq universal və xüsusi kitabxanalar informasiya funksiyasını yerinə yetirmək üçün kitabxana işinin bütün forma və üsullarından istifadə etməli, oxucularla aparılan informasiya işini cəmiyyətin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə, milli ideologiyamızın təbliğinə, dövlətçiliyimizin möhkəmlənməsinə yönəltməlidir. Kitabxanalar informasiya xidmətini müvəffəqiyyətlə təşkil etmək üçün digər informasiya orqanları ilə əməkdaşlığa, kitabxana işinin əlaqələndirilməsinə, informasiya ehtiyatlarından səmərəli istifadə işinə də diqqət yetirməlidirlər.

Beləliklə, müasir şəraitdə kitabxanaların sosial funksiyaları içərisində onların informasiya funksiyaları mühüm əhəmiyyət kəsb etməklə, müasir kitabxananın statusunun müəyyənləşdirilməsində mühüm əhəmiyyətə malikdir [3, s. 316].

Dövlət kütləvi kitabxanalar şəbəkəsinin tarixi təcrübəsinə və müvafiq nəzəri müddəalara əsaslanaraq bu kitabxana şəbəkəsi əsasında yaradılmış Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin həyata keçirdiyi sosial və informasiya funksiyalarının mahiyyətini belə xarakterizə etmək olar:

- geniş oxucu kütlələrinin elmi dünyagörüşü, politexnik və bədii-estetik biliklərə yiyələnməsi üçün zəruri hesab edilən universal kitab fonduna malik olması;
- kitab fondunun formalaşmasında əhalinin ümumtəhsil və fasiləsiz şəxsi təhsil mütaliəsinin tələblərinin nəzərə alınması;
- kitabxananın yerləşdiyi ərazinin təsərrüfat, mədəni və demoqrafik xüsusiyyətlərini özündə əks etdirən çap əsərlərindən ibarət fonda malik olması;
- oxucuların ahəngdar və hərtərəfli inkişafı, onların mütaliə mədəniyyətinin formalaşmasına xidmət edən əyani və şifahi təbliğatın bütün forma və metodlardan, həmçinin texniki vasitələr və müasir informasiya texnologiyasından istifadə edilməsi və s.

## ƏDƏBİYYAT

*1. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı: 20 sentyabr 2016-cı il / http://www.e-qanun.az/framework/33717*

*2. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu: 29 dekabr 1998-ci il; № 611-IQ (1998) / URL: https://e-qanun.az/framework/5041*

*3. Xələfof A. Kitabxanaşünaslığa giriş: Dərslik / Elmi redaktor R.Kazımov, redaktor K.Aslan. - Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001. - 400 s.*